AFFA
Association of Football Federations of Azerbaijan

UEFA

Sizinlə birlikdə yeni **məqsədlərə nail olaq**

Elxan Məmmədov

UEFA İcraiyyə Komitəsinin üzvlüyünə namizədlik broşürü

Mənim praktiki təcrübəm, yeni ideyalarım və idman sahəsində idarəetmə biliklərim UEFA İcraiyyə Komitəsinin üzvlərinin təcrübə və bacarıqlarını tamamlayaraq futbolun inkişafına yardım edəcək.

“Bizim öhdəliyimiz oğlanlara yaratdığımız şəraitin eynisini qızlar üçün də təmin etməkdir”.

AFFA
Association of Football Federations of Azerbaijan

Hörmətli həmkarlar, əziz dostlar!

Böyük məmnuniyyətlə qarşıdan gələn UEFA-nın İcraiyyə Komitəsi seçkilərində namizədliyimi irəli sürmək niyyətimi bəyan edirəm.

Bu broşür namizədliyimin əsaslarını – mövqeyimi, məqsəd və nailiyyətlərimi özündə ehtiva edir.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının baş katibi kimi son doqquz ildə Azərbaycanda futbolun inkişafı üçün çalışmışam. Bu dövrdə bəzi böyük nəticələrə şahidi olmuşuq. İndi mən avropalı həmkarlarımla sıx əməkdaşlıq edərək Avropa futbolundan əldə etdiyimiz bacarıq və biliklərlə futbolu daha da irəli aparmaq, inkşaf etdirmək istərdim.

Meydanda komandanın tamamlayıcı rol, bacarıq və təcrübə vəhdətinə ehtiyacı olduğu kimi, mən də UEFA-nın İcraiyyə Komitəsinə tamamlayıcı keyfiyyətləri gətirəcəyəm. Bütün Avropada futbolun əhatə olunması və əlçatan olmasına yardım edəcək, eləcə də həll olunması vacib bir çox problemləri həll edəcək kollektiv gücü məhz budur.

Mən bütün səviyyələrdə Şərqi Avropanın təmsil olunmasının, həmçinin qadın futbolunun inkişafı və xüsusilə məhdud vəsaitə malik olan üzv assosiyasiyalarda daxil olmaqla, bütün Avropada rəqabətliliyin artırılmasında regional irəliləyişin tərəfdarıyam. Birlikdə biz oyunun ən yüksək şəffaflıq standartlarını təmin etmək üçün fəaliyyətimizi davam etməliyik.

Bu broşürdə namizədliyimin təsvir olunan əsasları:

- İnnovasiya
- Praqmatizm
- Komanda işi
- Nəticə

Birgə çalışaraq, Avropa futbolunu yeni davamlı inkişaf və yüksəliş dövrünə apara bilərik. Bununla da, sevdiyimiz bu gözəl oyunu daha da şöhrətləndirək.

Dəstəyiniz üçün şərəf duyuram və dərin minnətdarlığımı bildirirəm.

Elxan Məmmədov

İNNOVASİYA

Namizədliyimin əsaslarından birincisi İnnovasiyadır.

Sürətlə dəyişən dünyamızda, biz **kreativ, hərəkətli və dəyişikənliyə** hazır olmalıyıq.

Yeni texnologiyalar bizə mövcud və yeni futbol auditoriyaları ilə əlaqə və təkrar əlaqə yaratmağa imkan yaradır.

Biz futbolu daha da cəlbedici etmək üçün innovasiyadan istifadə edə bilərik; daha çox baxımlı futbol təcrübəsi yaratmaqla azarkeşlərin maraq və əyləncələrini artıraq. **Bizim məhsul futboldur - futbol həmişə birinci yerdə olmalıdır - lakin şaxələnməlidir, bizim işimiz əyləncə olmalıdır.**

İnanıram ki, gələcək nəsillərin rifahı naminə futbolu layihələndirib təqdim edəndə - arenada, ekranda, klublarda və ya kommersiya əlaqələri vasitəsilə - daha da novator ola bilərik.

Bizim məhsul futboldur - futbol həmişə birinci yerdə olmalıdır - lakin şaxələnməlidir, bizim işimiz əyləncə olmalıdır.

PRAQMATİZM

Azərbaycanda futbolun inkişafındakı rolum **praqmatik, praktik təcrübəmə** əsaslanır.

Mən **oyunun inkşafı üçün çalışan, inkişaf Üzv Assosiyasiyaların** qarşılaşdığı praktiki problemlərin həlli yollarıyla bağlı ilkin mənbə biliklərinə malikəm. Mənim komandam həmçinin UEFA-nın Hattrick, Təhsil və Kütləvi Futbol proqramlarının üzv assosiasiyaların inkşaf imkanlarını necə artırdığının və inkişafı stimullaşdırdığının şahidi olmuş, o cümlədən UEFA Grow 2020 Strategiyası kimi yeni layihələrin həyata keçirilməsində təşəbbüs göstərmiş, AFFA milli səviyyədə bu təşəbbüsü həyata keçirən ilk üzv assosiasiyalardan biri olmuşdur.

Mən həmçinin bu yaxınlarda **Avropa İdman İdarəetmə (European Sport Governance (MESGO)) proqramını Executive Master** dərəcəsində bitirmişəm. UEFA təqaüdü qazanaraq yiyələndiyim bu rəsmi idman idarəetməsi dərəcəsi mənə **Avropa kontekstində idman idarəetməsində üzləşən problemlərin əla izahını** verdi. Qazandığım bu yeni idman idarəetmə biliklərini Avropa futbolunun xeyrinə tətbiq etmək istəyirəm.

Yaxşı idarəetməyə əsaslanan praqmatik yanaşmam nisbətən qısa zamanda əldə etdiyim aşağıdakı əsas nailiyyətlərin daxil olduğu uğurlu nəticələrə səbəb olub:

- Bütün səviyyələrdə tərəqqi və uğura aparan, Azərbaycanda futbolun inkişafına nəzarəti təmin edən yeni idarəetmə, lisenziyalaşdırma və maliyyə strukturunun yaradılması
- FIFA U-17 qadınlararası dünya çempionatı Azərbaycan 2012-nin uğurlu təşkilinə əsaslanaraq məqsədli kütləvi futbol fəaliyyəti ilə yanaşı, bir çox yeni qadın oyunçu futbola cəlb edilmiş və onlardan 10.000-dən çox qadın və qız artıq qeydiyyatdan keçmiş və müntəzəm futbol oynayır
- Açılış mərasimində 33.000 azarkeşlə bir rekorda imza atılan 2016 UEFA U-17 Avropa Çempionatına ev sahibliyi etmək turnirin bu mərhələsində ilk dəfə çıxış edən Azərbaycanın U-17 komandasına dəstək oldu
- UEFA EURO 2020-nin 4 qrup və 1 dörddəbir final oyunlarının Azərbaycanda keçirilməsi üçün namizəliyini irəli sürülməsi ilə bağlı qrupa rəhbərlik etmək

Komandamın nailiyyətləri ilə fəxr edirəm və mən nisbətən az inkişaf etmiş futbol ölkəsinin bir üzv assosiasiyasındandakı təcrübəmdən qaynaqlanan praktiki ideyalar və qərarlarla yanaşı UEFA-dakı yeni roluma **məqsədyönlü yanaşma** gətirəcəyəm. İnfrastruktur və uşaq futbolu sahələrinin kifayət qədər maliyyələşməsini təmin etməklə biz oyun standastlarını həm daxili liqalarda, həm də UEFA klub yarışlarında yüksəldə bilərik. Azərbaycanda son iki il ərzində Avropa Liqasının qrup mərhələlərində Azərbaycanı təmsil etmiş aparıcı klublar "Qarabağ" və "Qəbələ" artıq bunu sübut edib.

Mənim Avropa futbolunun gələcəyi üçün məqsədlərim **oyunda rəqabəti artırmaq, Şərqi Avropa ölkələrinin üzləşdiyi** stabil maliyyə kimi **məsələləri gündəmə gətirmək,** həmçinin danışılmış oyunlar probleminin əsas məqamlarını həll etməklə **toxunulmazlığın və etimadlılığın bərpasını** təmin etməkdir və bunlar da oyunların gələcəyi üçün fundamental əsasdır.

Sizinlə birlikdə biz Avropa futbolunun üzləşdiyi gənclərin cəlb edilməsi, kommersiya inkişafı, azarkeş təcrübəsi və üzv assosiasiyaların hüquq və səlahiyyətlərinin artırılması kimi çağırışlara və yeni imkanlara yol aça bilərik.

KOMANDA İŞİ

Heç kim Avropa futbolunun inkişafı məsələlərini təkbaşına həll edə bilməz. **İşə birgə yanaşma zəruridir.** Komanda işi AFFA-nın uğurlarının ən vacib köməkçi amillərindən biridir və bu kampaniyanı həyata keçirməkdə mənim əsas motivasiyam **Avropa futbolundan olan həmkarlarımızla daha yaxından işləməkdir.**

Bir cari futbol inzabatçısı kimi mənim əməliyyat biliyim və təcrübəm **İcraiyyə Kommitəsinin digər üzvlərinin bilik və bacarıqlarını tamamlayacaq**, yeni, davamlı və yaxşı təchiz edilmiş, bütün Avropa boyu futbolun inkişafını təmin edən bir komanda yaradacaq.

Həmkarlarım mənim insanlarla davranış - dinləmə, hörmət etmə və ünsiyyət qurma bacarığımı tez-tez vurğulayırlar. Sizlərdən çoxunuz ilə sıx peşəkar münasibətlər qurmuşam və gələcək illərdə sizin daha çoxunuzla işləməyi səbrsizliklə gözləyirəm.

Heç kəs Avropa futbolunun inkişafı məsələlərini təkbaşına həll edə bilməz. İşə birgə yanaşma zəruridir.

Nəticə

AFFA-nın baş katibi kimi işlədiyim müddətdə Azərbaycanın futbol fəaliyyətində kütləvilikdən tutmuş elit səviyyəyə qədər mühüm inkişaf nəzərə çarpmışdır. Bu müddət ərzində nailiyyətlərim:

- İnfrastruktur inkişafına nəzarət
- Qadın futbolçuların sayının artırılması – 2010/2011-ci illərlə müqayisədə 2015/2016-cı illərdə 445% artım
- Xüsusən gənclərin təşkil etdiyi 70.000-dən çox Facebook və 21.000-dən çox İnstagram izləyicilərindən ibarət sosial media əlaqələrinin genişləndirilməsi
- Klubların inkişafının davam etdirilməsi üçün AFFA-nın lisenziya proqramının nəzarət altına alınması
- AFFA-nın 80% büdcəsi daxil olmaqla Azərbaycanda oyunların keçirilməsi üçün sponsorluğun təmin edilməsi
- Əməkdaşlığı inkişaf etdirərək UNİCEF kimi təşkilatlar da daxil olmaqla, sosial layihələr həyata keçirmək və futbolun gücündən istifadə etməklə evlərindən məhrum olanın və azlıqların yaşayışlarının yaxşılaşdırılması

Karyeram müddətində əsas mərhələlər:

2007 28 yaşda AFFA-nın baş katibi təyin olunmaq

2010–2013 UEFA Çempionlar Liqasında Match Delegate təyin olunmaq

2012 FIFA U-17 Qadınlararası Dünya Çempionatının Azərbaycanda keçirilməsi

2013 AFFA-nın BOK tərəfindən "Qadın və İdman" mükafatı ilə təltif olunması

2015 Azərbaycanın UEFA 2020-də qrup oyunlarına və 1/4 final oyununa ev sahibliyi etməyə layiq görülməsi

2015 Bakı-2015 Avropa Oyunlarının açılış mərasimi üçün Təşkilat Kommitəsinin üzvü

2016 Azərbaycanın UEFA U-17 Avropa Çempionatının ev sahibi olması

2016 European Sport Governance (MESGO) proqramını Executive Master dərəcəsində bitirmək

2016 Azərbaycan futbolunda rəhbərliyim ilə edilən önəmli dəyişikliklər səbəbindən Leaders U-40 Award ilə şəxsən mükafatlandırılmaq

NƏYƏ GÖRƏ ELXAN?

Sosial mediadan istifadə, gənclərin cəlb edilməsi, azarkeş təcrübəsinin inkişafı kimi məsələlərə yeni ideyalar və praktiki təcrübə gətirən gənc və gələcəyə inamla baxan futbol inzibatçısı.

Nisbətən kiçik üzv assosiasiyaların üzləşdikləri əsas məsələlərin və çətinliklərin həll edilməsində geniş "hands on" (fəal iştirak) təcrübəsi.

Üzv assosiasiyaların inkişafı üçün model olacaq rol – mötəbər tədbirləri araşdırılması, keçirilməsi üçün namizədlik irəli sürməsində və qəbul edilməsində uğurlu fəaliyyət göstəriciləri.

Yeni tanınmış idman idarəetməsinə aid biliklərə malik, hazırki İcraiyyə Kommitəsinin əməkdaşlarının quruma aid bacarıq və təcrübələrini tamamlayan və onlarla çiyin-çiyinə işləməyə can atan bir komanda üzvü.

Sizinlə birlikdə yeni **məqsədlərə nail olaq**